TARİYEL TALIBOV – 65



Əməkdar Elm Xadimi, AMEA-nın müxbir üzvü, biologiya üzrə elmlər doktoru, professor Tariyel Talıbov uzun illər dərin tədqiqatlar aparan və botanika elmində əhəmiyyətli nəticələr əldə edən nüfuzlu alimlərdən biridir.

Tariyel Hüseynəli oğlu Talıbov 22 fevral 1949-cu ildə Naxçıvan MR Şərur rayonunun Siyaqut kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1966-cı ildə Siyaqut kənd onbirillik orta məktəbi, 1973-cü ildə isə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirmişdir. Təhsilini başa vurduqdan sonra Naxçıvan Regional Elm Mərkəzində kiçik elmi işçi vəzifəsinə işə qəbul edilmiş, hərbi xidmətə çağırılmış, 1974-cü ildə hərbi xidmətdən qayıtdıqdan sonra Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (İndiki Naxçıvan Dövlət Universiteti) kimya-biologiya kafedrasında baş laborant, Biologiya kafedrasında müəllim, baş müəllim, Botanika kafedrasında dosent vəzifələrində çalışmış, 1989- 2002-ci illərdə universitetin Botanika kafedrasının müdiri vəzifəsində işləmişdir.

2003-cü ildə AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru vəzifəsinə təyin olunmuş və hal- hazırda həmin vəzifədə çalışır.

1978-ci ildə Azərbaycan EA Genetika və Seleksiya İnstitutunun aspiranturasına daxil olmuş, 1986-cı ildə namizədlik dissertasiyası müdafiə edərək biologiya elmləri namizədi elmi dərəcəsi almışdır.

2003-cü ildə AMEA Botanika İnstitutunda "Naxçıvan MR-in flora biomüxtəlifliyi, onun səmərəli istifadəsi və qorunması" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək "Botanika" ixtisası üzrə biologiya elmlər doktoru elmi dərəcəsi almışdır.

Apardığı elmi tədqiqatların mühüm nəticələri və hazırladığı kadrlara görə 2007-ci ildə ona professor elmi adı verilmişdir. Tariyel Talıbov 160 əsərin, o cümlədən, 31 kitab, metodik vəsait, proqram və xəritələrin müəllifidir. T.Talıbov bir çox nüfuzlu beynəlxalq qurultay, simpozium və konfranslarda (Türkiyə, Kiyev, Vitebsk, Moskva, Sankt-Peterburq, Novosbirski və Simferopol) iştirak etmişdir.

T.H.Talıbovun Naxçıvan Muxtar Respublikasının biomüxtəlifliyinin tədqiqinə dair qiymətli əsərləri və monoqrafiyaları nəşr olunmuşdur. Bunlardan "Naxçıvan MSSR-də biosferin mühafizəsi", "Naxçıvan diyarının dərman bitkiləri", "Naxçıvan MR-in flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması", İki cilidlik "Naxçıvan Ensiklopediyası" (Əsas məqalə müəlliflərindən biri), "Naxçıvan abidələri ensiklopediyası. The encyclopaedia of Nakhchivan monuments" (Əsas məqalə müəlliflərindən biri), "Naxçıvan Muxtar Respublikası bitkiliyi", "Naxçıvan Muxtar Respublikası florasının yabanı alma və armud növləri", ilk dəfə olaraq Naxçıvan MR-in iki cildlik "Qırmızı Kitab"ı, "Naxçıvan Muxtar Respublikası florasının çılpaqtoxumlu bitkiləri", "Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri" və "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası"nı göstərmək olar.

T.H.Talıbovun aspirant və dissertantların hazırlanılmasında böyük xidmətləri vardır, onun rəhbərliyi altında biologiya üzrə elmlər doktoru və fəlsəfə doktorları müdafiə etmişdir.

Tariyel Talıbovun çoxillik səmərəli elmi, elmi - təcrübi və təşkilatçılıq fəaliyyəti bir çox Fəxri fərman və adlarla mükafatlandırılmışdır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin, AMEA Rəyasət Heyətinin "Fəxri fərman"ları, ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar olaraq "Qızıl medal"la təltif edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ona "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

2006-2009-cu illərdə Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Qafqaz Ekoregional Şurasının üzvü kimi fəaliyyət göstərmişdir. AMEA Botanika İnstitutunda fəaliyyət göstərən Dissertasiya Şurasının sədr müavini kimi Şuranın iclaslarının təşkili və aparılmasında iştirak etmişdir.

Botanika elmində əldə etdiyi yüksək elmi nəticələrinə görə 2007-ci ildə "Botanika" ixtisası üzrə AMEA-nın müxbir üzvü seçilmişdir.

Elmi fəaliyyəti ilə yanaşı, professor Tariyel Talıbov həm də ictimai xadimdir. O, 2005 və 2010-cu illərdə 12 saylı Şərur seçki dairəsindən III və IV çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmişdir. Yeni Azərbaycan Partiyasının üzvü kimi dövlətçiliyimizin qorunmasında, Naxçıvan MR-in inkişafında böyük xidmətlər göstərmişdir.

Gorkəmli alim, tanınmış pedaqoq Tariyel Talıbov sadə, təvazökar və xeyirxah, nəcib insani keyfiyyətlərə, yüksək elmi və təşkilatçılıq qabiliyyətinə malik olduğundan həmkarları arasında böyük nüfuz və hörmət qazanmışdır. O, özünə və yoldaşlarına qarşı tələbkar, ciddi, işinə məsuliyyətli, daim öz üzərində çalışan, elmi və pedaqoji fəaliyyətinin artırılması qayğısına qalan bir tədqiqatçı alim kimi Azərbaycanda və ölkə hüdudlarından kənarda tanınıır.

Səyyarə İbadullayeva
b.ü.e.d., prof., AMEA Botanika İnsitutunun Etnobotanika lab.-nın müdiri